# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 412** **Bakı şəhəri, 23 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında" 1994-cü il 10 may tarixli 185 nömrəli, "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 24 yanvar tarixli 11 nömrəli, "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında" 2017-ci il 17 noyabr tarixli 500 nömrəli, "Əlilliyi olan şəxslərin abilitasiyası Qaydası"nın təsdiq edilməsi barədə" 2020-ci il 30 dekabr tarixli 521 nömrəli və "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" 2021-ci il 28 yanvar tarixli 18 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1424 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 656; 2005, № 2, maddə 131; 2006, № 5, maddə 463, № 2, maddə 116; 2008, № 2, maddə 130; 2016, № 7, maddə 1343; 2018, № 10, maddə 2163, № 12 (II kitab), maddə 2736; 2019, № 3, maddə 531; 2020, № 10, maddə 1310, № 11, maddə 1417; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 oktyabr tarixli 328 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və 1-ci hissədə ismin müvafiq hallarında "əlillər" sözü ismin müvafiq hallarında "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların problemləri üzrə kompleks Proqram" üzrə:

1.2.1. adında "əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.2. 1-ci hissə üzrə:

1.2.2.1. adında, yeddinci (birinci halda), doqquzuncu abzaslarda, onuncu abzasın birinci cümləsində və on birinci abzasın ikinci cümləsində "Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "Əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.2.2. birinci, ikinci, üçüncü abzaslarda, dördüncü abzasda (hər iki halda), altıncı abzasın birinci və ikinci cümlələrində, yeddinci abzasda (ikinci halda), onuncu abzasın ikinci cümləsində (hər iki halda) və on birinci abzasın birinci cümləsində ismin müvafiq hallarında "əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.2.3. ikinci abzasda "əlilin və sağlamlıq imkanları məhdud uşağın" sözləri "əlilliyi olan şəxsin" sözləri ilə, "əlil olan və ya sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlilliyi" sözü ilə, "hərbi əlillərin" sözləri isə "hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.3. 2-ci hissə üzrə:

1.2.3.1. adında və birinci abzasda "Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "Əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.3.2. ikinci abzasda (hər iki halda), üçüncü abzasda (hər üç halda) və dördüncü abzasın birinci və ikinci (hər üç halda) cümlələrində "əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.4. 3-cü hissə üzrə:

1.2.4.1. adında, ikinci abzasda, on dördüncü abzasın üçüncü cümləsində və on beşinci abzasda ismin müvafiq hallarında "Əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "Əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.4.2. birinci, üçüncü abzaslarda və on dördüncü abzasın üçüncü cümləsində (ikinci halda) ismin müvafiq hallarında "əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.4.3. on dördüncü abzasın üçüncü cümləsində "internat evlər" sözləri "sosial xidmət və ya reabilitasiya müəssisələri" sözləri ilə əvəz edilsin;

1.2.5. 4-cü hissə üzrə:

1.2.5.1. adında və birinci abzasın ikinci cümləsində "Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "Əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.5.2. birinci abzasın birinci və üçüncü cümlələrində "əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin, həmin abzasın ikinci cümləsində "əmək əlilləri və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri "istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.6. 5-ci hissə üzrə:

1.2.6.1. adında, 5.1-ci bəndin ikinci və dördüncü abzaslarında, 5.2-ci bəndin birinci, səkkizinci, onuncu və on ikinci abzaslarında, 5.3-cü bəndin birinci, yeddinci abzaslarında, 5.4-cü bəndin birinci və üçüncü abzaslarında, 5.5-ci bəndin beşinci abzasında ismin müvafiq hallarında "Əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "Əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.6.2. 5.1-ci bəndin ikinci abzasında "əlil" sözü "əlilliyi olan" sözləri ilə, "Məsul idarə və təşkilatlar" sütununda "Əlillər" sözü "Əlilliyi olan şəxslərin" sözləri ilə, üçüncü abzasında (hər iki halda), beşinci, altıncı abzaslarında ismin müvafiq hallarında, "əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər" sözləri ilə, yeddinci abzasında "əlil və ya sağlamlıq imkanları məhdud uşaq" sözləri "əlilliyi olan" sözləri ilə, səkkizinci və doqquzuncu abzaslarında "I və II qrup gözdən əlil və ya sağlamlıq imkanları məhdud uşaq" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək gözdən əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.2.6.3. 5.1-ci bəndin dördüncü abzasında "fərdi əmək fəaliyyətinə" sözləri "özünüməşğulluğa" sözü ilə əvəz edilsin;

1.2.6.4. 5.2-ci bəndin üçüncü abzasından "Əhalinin pul gəlirləri indeksləşdirildikdə əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların pensiyalarının indeksləşdirilməsini," sözləri çıxarılsın, həmin bəndin ikinci, üçüncü abzaslarında (ikinci halda), dördüncü, beşinci, altıncı, doqquzuncu, on dördüncü abzaslarında, 5.3-cü bəndin onuncu, on birinci, on yeddinci abzaslarında, 5.5-ci bəndin ikinci, üçüncü, altıncı abzaslarında, 5.6-cı bəndin yeddinci abzasında (hər iki halda) ismin müvafiq hallarında "əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

1.2.6.5. 5.3-cü bəndin üçüncü abzasında "Əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar evlərinə və pansionatlara, xüsusi uşaq internatlarına" sözləri "Əlilliyi olan şəxslər üçün sosial xidmət və reabilitasiya müəssisələrinə" sözləri ilə, on birinci abzasında "velo-araba" sözü "təkərli oturacaq" sözləri ilə əvəz edilsin;

1.2.6.6. 5.4-cü bəndin dördüncü abzasında "III qrup əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə, "I və II qrup əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.7. "Məsul idarə və təşkilatlar" sütunu üzrə:

1.2.7.1. 5.1-ci bəndin dördüncü abzasında "Respublika Baş Məşğulluq İdarəsi" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin, həmin bəndin beşinci abzasından "Material Ehtiyatları Nazirliyi, "Xalq üçün mallar" Dövlət Konserni və digər təchizat təşkilatları" sözləri, 5.2-ci bəndin səkkizinci abzasından "Material Ehtiyatları Nazirliyi, "Azərtikintimaterialsənaye" Dövlət Konserni" sözləri, on birinci və on ikinci abzaslarından "Ticarət Nazirliyi" sözləri, 5.3-cü bəndin on yeddinci abzasından "Xidmət" Konserni" sözləri çıxarılsın;

1.2.7.2. 5.6-cı bəndin onuncu abzasında "Mətbuat və İnformasiya Nazirliyi" sözləri "Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 125, № 6, maddə 1221; 2019, № 3, maddə 517; 2021, № 7, maddə 871) ilə təsdiq edilmiş "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinətin ödənilməsi Qaydası"nın 2.1-ci və 2.2-ci bəndlərində "I dərəcə Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan" sözləri "Qarabağ müharibəsi ilə əlaqədar orqanizminin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 oktyabr tarixli 303 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8713 alt yarımmövqeyinə aid sətirdə "arabalar (əlil arabaları)" sözləri "təkərli oturacaqlar (əlilliyi olan şəxslər üçün təkərli oturacaqlar)" sözləri ilə əvəz edilsin;

3.2. 8714 20 000 0 alt yarımmövqeyinə aid sətirdə "üçün (əlil arabaları üçün)" sözləri "(əlilliyi olan şəxslər üçün təkərli oturacaqlar) üçün" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 521 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1622) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin abilitasiyası Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2-ci bənddə "etdirməklə" sözü "etdirmək, habelə əlilliyi olan şəxsdə olmayan bacarıqların öyrədilməsi yolu ilə" sözləri ilə əvəz edilsin;

4.2. 2.6-cı bənddə "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

4.3. 2.10-cu bəndin ikinci cümləsində "əlillik dərəcəsi, əlilliyin səbəbi" sözləri "orqanizmin funksiyalarının pozulması faizi, səbəbi" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101, № 6 (IV kitab), maddə 671) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın 5.1.3-cü yarımbəndində "əlilliyin dərəcəsi" sözləri "orqanizmin funksiyalarının pozulması faizi" sözləri ilə əvəz edilsin.

**6.** Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***